# ƏMR
№ 3-21/3-1-F-108/2023

Bakı şəhəri 20 iyul 2023-cü il

İqtisadiyyat Nazirliyində 2023-cü il üzrə növbəti “Uğur yolu” müsabiqəsinin təşkili haqqında

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununa və "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"yə uyğun olaraq, İqtisadiyyat Nazirliyində rəhbər vəzifələrin tutulması üçün yüksək potensiallı ehtiyat kadrlar bazasının formalaşdırılmasında mövcud potensialın səmərəli istifadəsinin, kadrların düzgün seçilməsi və yerləşdirilməsinin, peşəkarlıq səviyyəsinin artırılmasının, rotasiyasının, hərtərəfli inkişaf üçün şəraitin yaradılmasının təmin edilməsi, eləcə də idarəetmə sahəsində təcrübə mübadiləsinin təşkil edilməsi məqsədilə “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə”nin 5.5.13-cü yarımbəndini rəhbər tutaraq

əmr edirəm:

1. İqtisadiyyat Nazirliyində 2023-cü il üzrə növbəti “Uğur yolu” müsabiqəsi (bundan sonra – Müsabiqə) keçirilsin.

2. Müsabiqənin keçirilməsi məqsədilə aşağıdakı tərkibdə Komissiya yaradılsın:

Komissiyanın sədri:

Elnur Əliyev – iqtisadiyyat nazirinin birinci müavini.

Komissiyanın üzvləri:

Orxan Nəzərli – Dövlət Vergi Xidmətinin rəisi;

Mətin Eynullayev – Əmlak Məsələləri Dövlət Xidmətinin rəisi;

Məmməd Abbasbəyli – Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi;

Amil Əlili – Aparat rəhbərinin müavini;

Hüseyn Əliyev – iqtisadiyyat nazirinin müşaviri;

Xəqani Abdullayev – iqtisadiyyat nazirinin müşaviri;

Sevinc İsmayılova – İnsan resursları şöbəsinin müdiri;

Nərgiz Muradova – İnsan resursları şöbəsinin müdir müavini;

Aytən Kərimova – Dövlət Vergi Xidmətinin İnsan resursları baş idarəsinin rəisi;

Şamo Mürşüdov – Əmlak Məsələləri Dövlət Xidmətinin İnsan resurslarının idarə edilməsi şöbəsinin müdiri;

Azərbaycan Respublikasının
İqtisadiyyat Nazirliyi

ƏSLİ İLƏ DÜZDÜR

Aytən Hüseynova – Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin İnsan resursları şöbəsinin müdiri;

Aidə İbrahimova – İnsan resursları şöbəsinin İnsan resurslarının inkişafı və islahatların həyata keçirilməsi sektorunun müdiri, İqtisadi Elmi Tədqiqat İnstitutunun Təlim Tədris Mərkəzinin İdarə heyətinin sədri vəzifəsini icra edən.

3. Komissiyaya tapşırılsın ki, müsabiqənin aşkarlıq və şəffaflıq prinsipləri əsasında həyata keçirilməsini təmin etsin.

4. Komissiyanın cari fəaliyyətinin təşkili məqsədilə Katiblik funksiyasının həyata keçirilməsi İnsan resursları şöbəsinə həvalə edilsin. Katibliyin fəaliyyətinə rəhbərliyi İnsan resursları şöbəsinin müdir müavini Nərgiz Muradova həyata keçirsin.

5. İnsan resursları şöbəsinin müdiri Sevinc İsmayılovaya və Maliyyə-təminat və proqnozlaşdırma şöbəsinin müdiri vəzifəsinin icraçısı Anar Hüseynova tapşırılsın ki, zərurət yarandığı təqdirdə Komissiyanın fəaliyyətinə və işinin təşkilinə ekspertlərin "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq ödənişli və ya ictimai əsaslarla cəlb edilməsini təmin etsinlər.

6. İnsan resursları şöbəsinin İnsan resurslarının inkişafı və islahatların həyata keçirilməsi sektorunun müdiri, İqtisadi Elmi Tədqiqat İnstitutunun Təlim Tədris Mərkəzinin İdarə heyətinin sədri vəzifəsini icra edən Aidə İbrahimovaya tapşırılsın ki, müsabiqə ilə bağlı təlimlərin təşkili üzrə müvafiq tədbirlərin həyata keçirilməsini təmin etsin.

7. Rəqəmsal idarəetmə şöbəsinin müdiri Anar Nərimanova tapşırılsın ki, müsabiqənin təşkilinin bütün mərhələlərinin elektron həllər və proqram təminatını təşkil etsin.

8. Maliyyə-təminat və proqnozlaşdırma şöbəsinin müdiri vəzifəsinin icraçısı Anar Hüseynova tapşırılsın ki, müsabiqənin maliyyələşməsinin Nazirliyin büdcədənkənar vəsaiti hesabına həyata keçirilməsini və bu əmrdən irəli gələn digər məsələlərin həll olunmasını təmin etsin.

Əsas : iqtisadiyyat nazirinin müavini Sahib Məmmədovun 08.07.2023-cü il tarixli 3-21/3-5-28186/2023 nömrəli xidməti məruzəsi.

**Nazir** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi SƏNƏDLƏRLƏ VƏ VƏTƏNDAŞLARIN MÜRACİƏTLƏRİ İLƏ İŞ ŞÖBƏSİ **Mikayıl Cabbarov**

Azərbaycan Respublikasının
İqtisadiyyat Nazirliyi

ƏSLİ İLƏ DÜZDÜR